

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 16 (21.426)

27 yanvar 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Konfransda nitq söyləyən Prezident İlham Əliyev bildirib ki, 2015-ci ildə dünyada iqtisadi böhranın daha da dərinləşməsinə baxmayaraq, ötən il Azərbaycanda bir çox məsələlər uğurla həll olunub.

2004-cü ildən regionların inkişafı ilə bağlı fəaliyyətdə olan dövlət proqramını xalqımızın həyatında tarixi hadisə adlandıran Prezident İlham Əliyev deyib ki, son 12 ildə 25 elektrik stansiyası tikilib, ölkə üzrə qazlaşdırma 90 faizə yaxınlaşıb, bütün şəhərlərimiz "mavi yanacaq"la təmin olunub, 10 min kilometrdən çox yol çəkilib, xeyli sosial layihələr icra edilib, 3 min məktəb, 600-ə yaxın xəstəxana, 41 olimpiya mərkəzi tikilib, maaşlar 5 dəfə, pensiyalar 7 dəfə artıb, məcburi köçkünlər üçün 225 min insanın yaşadığı 89 şəhərcik salınıb.

İqtisadiyyat naziri Şahin Mustafayev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ili çərçivəsində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

Sonra "Mətanət A" şirkətinin baş direktoru Elxan Başirov, Qusar Logistika Mərkəzi və Bağçılıq Təsərrüfatının baş direktoru Elnur Mənsimov, Naxçıvanda fəaliyyət göstərən "Cahan Holdinq"in direktoru Vüqar Abbasov və başqaları çıxış ediblər.

# "Naxçıvan tarixi" çoxcildliyinin təqdimatı olmuşdur

Yanvarın 26-da Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Naxçıvan tarixi" çoxcildliyinin təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanın elmi həyatında mühüm hadisə olan "Naxçıvan tarixi" çoxcildliyinin nəşri münasibətilə muxtar respublika ziyalılarını və elmi ictimaiyyəti təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır"***, – fikrini xatırladaraq demişdir: Bəşər sivilizasiyasının ilk məskənlərindən olan Naxçıvan antik və orta əsrlər dövrü maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə – ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir. Naxçıvan həm də Azərbaycan dövlətçilik tarixinə mühüm töhfələr verən bir diyardır. Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürmüş, öz dövlətlərini yaratmışlar. Beş min il bundan əvvəl Naxçıvan şəhər mədəniyyətinin formalaşması bu yurdda sivilizasiyanın inkişafının ən mühüm göstəricisidir.





Buna görədir ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının tarixinin elmi şəkildə öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Görkəmli şəxsiyyətin ötən əsrin 70-ci illərindən başlayaraq milli dəyərlərin qorunması və xalqın tarixi yaddaşının bərpası istiqamətində həyata keçirdiyi tədbirlər milli tarixə yeni yanaşmanın əsasını qoymuşdur. Hələ o dövrdə Naxçıvanın tarixi ilə bağlı elmi araşdırmaların aparılması, yeni arxeoloji tədqiqat qruplarının yaradılaraq muxtar respublikaya göndərilməsi tariximizin öyrənilməsi üçün geniş imkanlar açmışdır. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə ulu öndərimiz xalqımızın qədim tarixinin fundamental əsaslarla öyrənilməsi və təbliği ilə bağlı qarşıya yeni vəzifələr qoymuş, Azərbaycan, eləcə də Naxçıvan tarixinin yenidən araşdırılmasına başlanmışdır.

Ali Məclisin Sədri demişdir: Ulu öndərin tapşırıq və tövsiyələri əsas götürülərək Naxçıvan Muxtar Respublikasında tariximizə, dilimizə, ədəbiyyatımıza, folklorumuza, arxeologiya və etnoqrafiyamıza dair araşdırmalar diqqət mərkəzində saxlanmışdır. 1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq Simpoziumu bu istiqamətdə fəaliyyətə ciddi təkan vermiş, sonrakı dövrdə keçirilən 50-dən artıq beynəlxalq simpozium və konfransda da sanballı elmi nəticələr əldə edilmişdir. Aparılan elmi araşdırmaların vahid mərkəzdən əlaqələndirilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, əldə olunan elmi nəticələrin yetişməkdə olan gənc nəslə öyrədilməsi və təbliği məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılmışdır. Bütün bunlar elmi tədqiqatlara stimul vermiş, muxtar respublika ərazisində, ələlxüsus Gəmiqaya, Ovçulartəpəsi, Kültəpə, Oğlanqala, Qızqalası, Xaraba Gilan, Duzdağ, Əlincəqala, Gülüstan türbəsi, Sirab ətrafı və başqa ərazilərdə aparılmış arxeoloji tədqiqatlar zamanı mühüm tarixi əhəmiyyət kəsb edən maddi-mədəniyyət nümunələri, elmi materiallar aşkar edilmiş və toplanmışdır. Əldə olunan materiallar əsasında Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair mindən artıq kitab və elmi-tədqiqat əsərləri yazılmış, "Naxçıvan Abidələri Ensiklopediyası", ikicildlik "Naxçıvan Ensiklopediyası" və "Naxçıvan tarixi atlası" nəşr edilmişdir.

Qeyd olunmuşdur ki, görülmüş işlər və aparılmış elmi tədqiqatlar Naxçıvan tarixi ilə bağlı ümumiləşdirilmiş əsərin hazırlanması məsələsini aktuallaşdırmışdır. Bütün bunlar nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən üç cilddən ibarət "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanmasına başlanmışdır. Ötən üç il ərzində "Naxçıvan tarixi" üzərində aparılan işlər öz bəhrəsini vermiş, ilk dəfə olaraq Naxçıvanın ən qədim dövrdən müasir dövrədək tarixi sistemli və fundamental tədqiqatların predmetinə çevrilmiş, tariximizə və mədəniyyətimizə aydınlıq gətirən qiymətli çoxcildlik nəşr olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Hər bir xalqın tarixi o xalqın milli kimlik pasportudur. Təsadüfi deyil ki, müasir dövrdə o xalq mütərəqqi dəyərlərə malik xalq hesab olunur ki, onun qədim tarixi, dövlətçilik ənənələri, mədəniyyəti olsun. Bütün bunlar bizdə – tarix boyu bu torpaqlarda yaşamış Azərbaycan türklərində vardır. Ona görə də bu gün öz tariximizə, milli dəyərlərimizə, dövlətçilik ənənələrimizə sahib çıxır, tədqiqatlar, elmi araşdırmalar aparır, xalqımızın sabahı olan yeni nəsli tarixi köklər üzərində yetişdiririk. Tarixi yazmaq nə qədər vacibdirsə, onu öyrənmək və öyrətmək, gənc nəslə aşılamaq da o qədər vacibdir. "Naxçıvan tarixi" çoxcildliyi ali təhsil müəssisələrində dərslik kimi tədris olunmalı, bu qədim diyarın tarixinin müxtəlif mərhələlərinə ətraflı nəzər salınmalı, elmi müzakirə və konfranslar keçirilməlidir. "Naxçıvan tarixi" teleradio və qəzetlərdə geniş təbliğ olunmalıdır.

Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, əsas vəzifələrdən biri də tariximizi dünya ictimaiyyətinə olduğu kimi çatdırmaqdan və tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısını almaqdan ibarət olmalıdır. Bu işdə yalnız tarixçi alim və tədqiqatçılar deyil, bütün ziyalılar, ictimaiyyət nümayəndələri fəallıq göstərməlidirlər. Bu gün "Naxçıvan tarixi" çoxcildliyinin nəşrinin yekunlaşmasını Naxçıvan tarixi ilə bağlı görülən işlərin hesabatı kimi də dəyərləndirmək olar. Lakin iş bununla bitməməlidir. Naxçıvanın tarixi ilə bağlı elmi tədqiqatlar bundan sonra da davam etdirilməli, yeni elmi istiqamətlər müəyyənləşdirilməli, kitablar yazılmalıdır.

Ali Məclisin Sədri tədbir iştirakçılarına bu vəzifələrin icrasında uğurlar arzulamış, "Naxçıvan tarixi" çoxcildliyinin müəlliflərinə və kitabın hazırlanmasında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, ümummilli liderimizin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması Naxçıvan tarixinin öyrənilməsinə və tarixçi kadrların hazırlanmasına əsaslı zəmin yaratmışdır. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları və tövsiyəsi ilə beynəlxalq simpozium və konfranslar keçirilmiş, Naxçıvan tarixinin müxtəlif problemlərinə dair elmi məruzələr dinlənilmiş və simpozium materiallarına daxil edilərək toplu halında çap olunmuşdur. Bütün bunlar Naxçıvan tarixinin tədqiqi üçün əlavə materiallar vermişdir. Çoxcildlik hazırlanarkən yüzlərlə mötəbər qaynaqlara, xarici dövlətlərin 10-dan çox arxivlərinin sənəd və materiallarına, kitab və monoqrafiyalara, internet saytlarına, dövri mətbuat materiallarına istinad edilmişdir. İsmayıl Hacıyev "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşrinə göstərdiyi diqqət və qayğıya görə yaradıcı heyət və muxtar respublikanın elmi ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan tapşırıqların lazımınca yerinə yetirilməsi üçün bilik və bacarıqlarını əsirgəməyəcəklərini bildirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək demişdir ki, "Naxçıvan tarixi" çoxcildliyinin nəşri bütövlükdə Azərbaycan elmində əlamətdar hadisədir.

Ardı 2-ci səhifədə

Azərbaycançılıq ideologiyasının əsas istiqamətlərini əks etdirən çoxcildlik Naxçıvanın tarixi barədə ilk ümumiləşdirilmiş elmi əsər kimi mühüm əhəmiyyətə malikdir. "Naxçıvan tarixi" çoxcildliyində tarixə hərtərəfli baxış prinsipi ortaya qoyulmuş, ən qədim dövrlərdən günümüzədək Naxçıvanda elmin, mədəniyyətin, ədəbiyyatın, sənətkarlığın, eləcə də mətbuatın inkişafı tariximizin ayrılmaz tərkib hissəsi kimi araşdırılmışdır. Kitab Azərbaycan tarixinin Neolit dövrünün maddi sübutlarla elmi ictimaiyyətə çatdırılması və xalqımızın etnogenezinin öyrənilməsi baxımından da dəyərli, eyni zamanda Azərbaycan tarixşünaslığı üçün örnək tədqiqat toplusudur. Kitabda ilk dəfə olaraq bu məsələ vahid mövqe və milli maraqlar əsasında təhlil edilmişdir. Çoxcildlikdə Naxçıvanda yaşı min illərə dayanan sənayeləşmə dövrünün tədqiqi sanballı və tutarlı faktlarla ortaya qoyulmuş, bu ərazidə formalaşmış duzçıxarma sənayesi barədə dəyərli materiallar verilmiş, Nuh peyğəmbər və dünya tufanı haqqındakı tədqiqatlar öz əksini tapmışdır. Həmçinin çoxcildlikdə Azərbaycanın müstəqillik tarixi nəzəri və elmi əsaslarla tədqiq olunmuşdur. İsa Həbibbəyli "Naxçıvan tarixi" çoxcildliyinin nəşrini Azərbaycan elminə və ictimai-humanitar fikrinə töhfə kimi dəyərləndirmiş, bu münasibətlə ziyalılar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.




Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Fəxrəddin Səfərli demişdir ki, 1996-cı ildən başlayaraq Naxçıvan tarixinin ən qədim zamanlardan müasir dövrədək müxtəlif problemlərinin tədqiqi genişləndirilmişdir. Muxtar respublikada yerli tədqiqatçıların iştirakı ilə 10-a yaxın arxeoloji ekspedisiya, həmçinin ABŞ və Fransa arxeoloqlarının iştirakı ilə iki beynəlxalq ekspedisiya, 2013-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası fəaliyyətə başlamışdır. Aparılan arxeoloji tədqiqatlar sübut etmişdir ki, Naxçıvan "Eneolit mədəniyyəti"nin, "Kür-Araz mədəniyyəti"nin və "Boyalı qablar mədəniyyəti"nin yarandığı mərkəzlərdəndir. Naxçıvan tarixi ilə əlaqədar aparılan bütün tədqiqatların sistemləşdirilməsi və tarixi həqiqətlərin obyektiv şəkildə xalqa, beynəlxalq ictimaiyyətə çatdırılması üçün sanballı ümumiləşdirici əsərin yaradılmasına böyük ehtiyac var idi. Məhz bütün bunlar nəzərə alınaraq "Naxçıvan tarixi" çoxcildliyi hazırlandı.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Zəhmət Şahverdiyev qeyd etmişdir ki, "Naxçıvan tarixi" çoxcildliyində qədim diyarın keçdiyi mürəkkəb və çoxşaxəli yol ilk dəfə olaraq bütün mərhələləri ilə sistemli şəkildə əks olunmuşdur. Naxçıvanın zəngin tarixini lazımınca öyrənmək, geniş ictimaiyyətə çatdırmaq xüsusi elmi əhəmiyyət daşımaqla yanaşı, həm də böyük vətənpərvərlik işidir. Bu mənada çoxcildliyin hazırlanması və nəşri Azərbaycan tarixində mühüm mövqe tutan, qədim şəhər mədəniyyətinə malik olan Naxçıvanın tarixini işıqlandıran dəyərli elmi mənbədir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Naxçıvan tarixinə həsr olunan yeni nəşrlərdən ibarət sərgiyə baxmışlar.

Məlumat verilmişdir ki, sərgidə "Naxçıvan tarixi" çoxcildliyi ilə yanaşı, akademik Nailə Vəlixanlının "Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda" əsəri və "Türklər" kitabından Naxçıvana dair seçmələr" qoyulmuşdur. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə çap olunan "Naxçıvan tarixi" çoxcildliyi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində çalışan 25 tədqiqatçı tərəfindən hazırlanmışdır. Çoxcildliyin 452 səhifəlik birinci cildi Naxçıvanın ən qədim zamanlardan başlayaraq on səkkizinci əsrin qırxıncı illərinə, 528 səhifəlik ikinci cildi XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan dövrü, 560 səhifəlik üçüncü cildi isə İkinci Dünya müharibəsinin başlanmasından günümüzə qədərki dövrü əhatə edir. Kitablar hazırlanarkən tariximizə dair qəbul edilmiş xronoloji ardıcıllıq gözlənilmiş, müvafiq xəritələrin, cədvəllərin, kitabələrin surətlərinin, dövlət rəmzlərinin, görkəmli siyasi və dövlət xadimlərinin, eləcə də tarixi abidələrin, maddi-mədəniyyət nümunələrinin fotoşəkillərinin verilməsi əsərin tarixi və elmi əhəmiyyətini daha da artırmışdır.

"Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda" kitabında Naxçıvanın ərəb xilafəti, feodal dövlətləri və Atabəylər dövləti dövrlərindəki ictimai-siyasi həyatı işıqlandırılmışdır. Kitabda müxtəlif mənbələrdən götürülmüş məlumatların müqayisəli izahı Naxçıvanın qədim və orta əsrlər tarixinin obyektiv tədqiqinə yeni üfüqlər açır. Naxçıvan Muxtar Respublikasından olan tədqiqatçıların elmi məqalələrinin də yer aldığı "Türklər" kitabından Naxçıvana dair seçmələr"də isə Naxçıvanın qədim tarixi, özünəməxsus memarlıq ənənələri, muxtar respublika ərazisində aşkar olunan qoç heykəlləri, birinci Sultan Süleymanın Naxçıvan səfəri və Naxçıvan xanlığı barədə maraqlı məlumatlar verilmişdir.

Ali Məclisin Sədri hər iki kitabın "Naxçıvan tarixi" çoxcildliyinin əlavəsi kimi mühüm elmi əhəmiyyətə malik olduğunu bildirərək demişdir: Azərbaycan xalqının zəngin tarixi vardır. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması qarşıda duran əsas vəzifədir. "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması Azərbaycan tarixinin öyrənilməsi sahəsində görülən işlərin tərkib hissəsi olmaqla yanaşı, həm də gələcək tədqiqatçılar üçün yeni elmi istiqamətlər müəyyənləşdirir. Çoxcildliyin hər fəsli ayrıca bir elmi tədqiqatın mövzusudur. Ona görə də Naxçıvan tarixinin öyrənilməsi sahəsində görülən işlər, aparılan arxeoloji qazıntılar bundan sonra da davam etdirilməli, yeni tədqiqat qrupları yaradılmalıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ali təhsil müəssisələri ilə əlaqələri gücləndirməli, hamiliyə verilən ixtisaslar üzrə mütəxəssislərin, gənc tədqiqatçı və alimlərin hazırlanmasına diqqəti artırmalı, tələbələr arxeoloji qazıntılara cəlb edilməli və tarixi abidələrə ekskursiyalar təşkil olunmalıdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***AMEA Naxçıvan Bölməsi əməkdaşlarının apardığı araşdırmalar zamanı tarix və mədəniyyət abidələri arasında xeyli qalatipli yaşayış yerlərinin olduğu müəyyənləşdirilmişdir. Qalatipli yaşayış yerlərinin bir qismi yüksək dağ zirvəsində yerləşsə də, düzənlik sahədə, ovalıqlarda yerləşən qalalara da rast gəlinir. Araz ovalığında yerləşən bu tip qalalar başlıca olaraq ticarət və sənətkarlıq mərkəzi olmuş, ölkənin iqtisadi-siyasi həyatında mühüm rol oynamışdır.***

*Naxçıvan qalaları*

## Naxçıvanın qala-şəhərləri beş min il bundan əvvəl formalaşıb

Naxçıvanın daşduz və mineral xammal mənbələri ilə zəngin olması, habelə bu ərazinin Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən ticarət yolunun qovuşuğunda yerləşməsi ticarətin və sənətkarlığın inkişafına əlverişli şərait yaratmışdır. Son illərin tədqiqatları e.ə. VI-IV minilliklərdə Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən obsidian ticarətində Naxçıvanın mühüm yer tutduğunu göstərir. Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Duzdağda apardığı araşdırmalar e.ə. V minillikdə mədənçiliyin Naxçıvan sakinlərinin həyatında mühüm yer tutduğunu, duzun yalnız şəxsi istehlak üçün deyil, həm də ticarət məqsədilə istehsal edildiyini sübuta yetirir. Araşdırmalar Naxçıvanın həmçinin erkən metallurgiya mərkəzlərindən biri olduğunu göstərir. İqtisadi-mədəni əlaqələrin, ticarətin və sənətkarlığın inkişafı şəhərtipli yaşayış yerlərinin formalaşmasına səbəb olmuşdur.



Arxeoloji tədqiqat Naxçıvanda şəhərtipli yaşayış yerlərinin e.ə. III minillikdə, yəni beş min il bundan əvvəl formalaşdığını təsdiq etmişdir. Azərbaycanda ilkin şəhərlərin formalaşdığı əsas regionlardan biri Naxçıvan ərazisi olmuşdur. Arazboyu ovalıqda formalaşan belə şəhərlərdən biri tarixi ədəbiyyatda II Kültəpə adı ilə məlumdur. Yazılı mənbələr az olduğundan bu qala-şəhərin qədim adını müəyyənləşdirmək mümkün olmamışdır.

Bu yaşayış yeri Babək rayonunun Yuxarı Uzunoba kəndi yaxınlığında Cəhriçayla Naxçıvançayın birləşdiyi yerdə yerləşir. Birbaşa Erkən Tunc dövrü təbəqəsinin üzərində yerləşən Orta Tunc dövrü təbəqəsi 4,5 metr qalınlığındadır. Araşdırmalar zamanı bu təbəqədə tikinti qalıqları ilə seçilən dörd mərhələnin varlığı ortaya çıxarılmışdır. II Kültəpə yaşayış yerini əhatə edən müdafiə divarı müəyyən məsafədə yerləşdirilən dördkünc formalı bürclərlə möhkəmləndirilmişdir. Müdafiə divarının möhkəmləndirilməsi, habelə onun memarlıq xüsusiyyətlərinin effektini artırmaq üçün dördkünc formalı qüllələrdən də istifadə edilmişdir. Divarların bir qismində çay daşlarından çəkilmiş üzlüyün qalıqları saxlanmışdır. Faktlar göstərir ki, bu dövrdə divarların xarici görünüşünün mükəmməl olmasına xüsusi fikir verilmişdir.

II Kültəpə yaşayış yerinin xarakterik xüsusiyyətlərindən biri də küçələrə daş döşənməsidir. Şəhər mədəniyyəti üçün xarakterik olan bu xüsusiyyət yaşayış yerinin təmizliyinə də müəyyən diqqət ayrıldığını deməyə imkan verir. Araşdırmalar II Kültəpənin eni 3 metr olan dərin xəndəklə əhatə olunduğunu göstərir. Ehtimal ki, şəhərdəki çirkab sularını şəhərdən xaricə çıxarmaq üçün də müəyyən kanallar olmuşdur. II Kültəpənin daxili strukturu kifayət qədər öyrənilməsə də, ən mühüm inzibati binaların və idarə mərkəzlərinin, habelə şəhərin hakim dairələrinin yaşayış evlərinin Narınqalada yerləşdiyi ehtimal olunur. Şəhərin bu qismində ərzaq anbarlarının olması ehtimalı da vardır.



II Kültəpə yaşayış yeri üçün xarakterik olan cəhətlərdən biri də istehsal müəssisələrinin Narınqaladan kənarda yerləşdirilməsidir. Şəhərin qazıntıları zamanı Narınqalanın xaricində dulus kürələri, dulusçuluq emalatxanası, metaləritmə sobalarının qalıqları aşkar edilmişdir. Araşdırmalar göstərir ki, istehsalla məşğul olan əhali Narınqalanın xaricində məskən salmışdır.

Orta Tunc dövrü şəhər mədəniyyətinin ən mükəmməl əsərləri boyalı keramikadır. II Kültəpə yaşayış yeri bu tip keramikanın əsas istehsal mərkəzlərindən biri olmuşdur. Monoxrom və polixrom olaraq iki böyük qrupa ayrılan boyalı qabların dörd inkişaf mərhələsindən keçdiyi müəyyən edilmişdir. Lakin son illərin araşdırmaları bir neçə aralıq mərhələnin də olduğunu təsdiqləyir. Naxçıvanın Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların bənzərlərinə Urmiya hövzəsi, Mil düzü, Şimal-Şərqi Anadolu, Gürcüstan və indiki Ermənistan ərazisində rastlanmışdır. Bütöv olaraq götürüldükdə, müəyyən lokal fərqlər istisna olunmaqla, Urmiya hövzəsi, Van gölü çevrəsi, Qafqaz dağlarının cənub ətəkləri, Mil-Muğan düzləri ilə hüdudlanan bir bölgənin ortaq mədəniyyətə malik olduğu aydın şəkildə görünür. Bu geniş ərazidə yayılan boyalı qabların bütün xüsusiyyətləri Naxçıvanda izlənmişdir. Gürcüstanda yayılan tək stil boyalı qabların əksinə olaraq Naxçıvan, Şərqi Anadolu və Urmiya hövzəsində boyalı qablar daha çox çeşidlilik göstərmiş və müxtəlif mərhələlərdən keçmişdir. Şərqi Anadolu, Cənubi Qafqaz və Qərbi İranda ovalıqlarda yerləşən yaşayış yerlərində yaşayış kəsildiyi halda, Naxçıvanda oturaq həyatda heç bir fasilə olmamışdır. Bununla birlikdə zəngin otlaq və su qaynaqlarına malik olan dağ ətəklərində yarımköçəri həyat tərzi davam etmişdir. Orta Tunc dövründə qalatipli yaşayış yerlərinin yayılması köçmə maldarlığın inkişafı, əhalinin müdafiə ehtiyacının artması ilə bağlı olmuşdur. Qalatipli yaşayış yerlərindən Orta Tunc dövrünün erkən mərhələsinə aid keramika məmulatının aşkar olunması bu proseslərin e.ə. III minilliyin ortalarından başladığını təsdiq edir. Naxçıvanın Orta Tunc dövrü yaşayış yerləri güclü müdafiə divarı ilə əhatə olunmuş bu ərazidə güclü tayfa ittifaqları formalaşmışdır. Orta Tunc dövrünə aid ən möhtəşəm abidələrin Naxçıvanda yerləşməsi bu bölgənin Orta Tunc dövrü mədəniyyətinin əsas mərkəzi olduğunu təsdiq edir. Urmiya hövzəsi və Naxçıvandan fərqli olaraq, Şərqi Anadoludakı yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsinə rastlanmaması, bu dövrə aid arxeoloji abidələrin başlıca olaraq qəbiristanlıqlarla təmsil olunması həyatın köçəri xarakterdə olduğunu göstərir. Arxeoloji araşdırmalar göstərir ki, Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda yaşayan tayfalar oturaq və köçəri həyat tərzi keçirmişdir. Oturaq tayfaların əsas məskənləri Naxçıvan və Urmiya hövzəsi, köçəri tayfaların məskəni isə Şərqi Anadolu olmuşdur. Gürcüstan yaylaqlarında rastlanan qəbir abidələri bu tayfaların köç yolları üzərində salınmışdır. Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda boyalı qablar bütün qəbirlərdən tapıldığı halda, Gürcüstanda yayılan Trialeti mədəniyyətində boyalı qablar yalnız varlılara aid qəbirlərdən aşkar olunmuşdur. Bu da boyalı qabların Gürcüstana idxal malı olaraq daxil olduğunu təsdiq edir. Naxçıvanda meydana gələn bu mədəniyyət Mil-Muğan düzünə, Göyçə ətrafına və Gürcüstanadək yayılmışdır.

*Araşdırmalar göstərir ki, yalnız Azərbaycanın deyil, həmçinin Cənubi Qafqaz və Yaxın Şərqin tarixində mühüm rol oynayan Naxçıvanın qala-şəhərlərinin tarixi hələ kifayət qədər araşdırılmamışdır. Şübhəsiz ki, gələcək araşdırmalar tariximizlə bağlı yeni faktların aşkar olunmasına imkan yaradacaqdır.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Prokurorluq orqanlarında işləmək istəyənlər üçün test imtahanı keçirilib



*Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqə üzrə test imtahanı keçirilib.*

Yanvarın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində keçirilən imtahanda müsabiqədə iştirak etmək üçün sənəd təqdim etmiş 34 namizəddən 29-u iştirak edib. İmtahanda namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 3 saat vaxt verilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. Test imtahanı başa çatdıqdan dərhal sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim edilib. İmtahanda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

İmtahanda keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

✍ **Səbuhi HÜSEYNOV**

## Şərur rayonunda da əhalinin məşğulluğu diqqət mərkəzində saxlanılıb

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən ilin dekabrında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində demişdir: **“Bu il ölkədə 100 minə qədər yeni iş yeri açılmışdır. Bütövlükdə son səkkiz il ərzində bir milyondan artıq yeni iş yeri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yeridir…”***

Bu sahədə muxtar respublikamızda görülən işlər də təqdirəlayiqdir və hər il yeni uğurlarla yadda qalır. İcrası başa çatmış “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” əhalinin səmərəli məşğulluğu üçün əlverişli şərait yaratmış, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmışdır. Regional inkişaf proqramlarına uyğun olaraq həyata keçirilən kompleks tədbirlərin, eyni zamanda əmək ehtiyatlarından daha dolğun istifadə etmək və əhalinin səmərəli məşğulluğunu təmin etmək məqsədilə görülən işlərin nəticəsidir ki, təkcə ötən il muxtar respublikamızda 6 min 364 yeni iş yeri açılmış, məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 5 min 537 vətəndaş işlə təmin edilmişdir.

2015-ci ildə Şərur Rayon Məşğulluq Mərkəzi tərəfindən qeydiyyata alınan işaxtaranların sayı 617 nəfər olmuş, onların 537 nəfəri daimi işlə təmin edilmişdir. Əhalinin məşğulluğunu təmin etmək və sosial müdafiəsini yaxşılaşdırmaq məqsədilə məşğulluğun ən geniş formalarından biri olan əmək yarmarkalarının keçirilməsi təcrübəsindən il ərzində səmərəli istifadə olunmuşdur. Bunun üçün mərkəzin kollektivi keçirilən yarmarkalara əvvəlcədən ciddi hazırlıq işləri görmüş, rayonda fəaliyyət göstərən 126 idarə, müəssisə və təşkilatla, özəl qurumlarla mütəmadi əlaqə saxlayaraq mövcud olan iş yerlərini dəqiqləşdirmişdir. Həm dövlət, həm də özəl müəssisələrlə qurulan əlaqələr keçirilən əmək yarmarkalarına müsbət təsirini göstərmişdir. Ötən il rayonda keçirilən 3 əmək yarmarkasına idarə, müəssisə və təşkilatlardan 500-ə qədər boş iş yeri çıxarılmış, yarmarka vasitəsilə 125 nəfər müxtəlif sahələrdə daimi işlə təmin olunmuşdur. Muxtar respublika Təhsil və Səhiyyə nazirlikləri ilə birgə keçirilmiş əmək yarmarkalarında isə 24 vətəndaş ixtisasına uyğun daimi işlə təmin edilmişdir.

Vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə 2015-ci ildə 50 nəfər fiziki şəxs kənd təsərrüfatı məhsullarının becərilməsi, 12 nəfər sağlamlıq imkanları məhdud vətəndaş isə corab, şərf və xalça toxuculuğu üzrə haqqıödənilən ictimai işlərə cəlb olunmuşdur. İşaxtaranların peşə yönümünü təmin etmək məqsədilə 58 nəfər Naxçıvan Regional Peşə Tədris Mərkəzindəki elektrik montyoru, kompüter istifadəçisi, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, traktorçu-maşinist, bərbər, fotoqraf və digər kurslarda hazırlığa cəlb edilmiş, məktəbi bitirənlərin əksəriyyəti işlə təmin olunmuşdur.

Məlum olduğu kimi, əhalinin səmərəli məşğulluğunun təmin olunması üçün indiyədək bir neçə dövlət proqramı qəbul edilmişdir. Yanvarın 11-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” təsdiq edilmişdir.

Regionların inkişafı məqsədilə indiyədək qəbul edilmiş dövlət proqramlarına uyğun olaraq Şərur rayonunda geniş miqyaslı tikinti-quruculuq tədbirləri həyata keçirilmiş, irimiqyaslı layihələr reallaşmış, yeni emal və sənaye müəssisələri, xidmət şəbəkələri həyata vəsiqə almış, aqrar sahədə uğurlu nəticələr əldə edilmişdir. Bunlar iqtisadiyyatın inkişafı ilə yanaşı, işsizliyin aradan qaldırılmasında, əhalinin məşğulluğunun təmin olunmasında, maddi rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynamışdır. Qəbul edilmiş növbəti dövlət proqramı bu sahədə daha uğurlu nəticələrə nail olunmasına stimul verir. Əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə hazırlanmış yeni proqram işaxtaranların sosial müdafiəsi üçün daha geniş imkanlar açacaqdır.

**Məmməd MƏMMƏDOV**
***Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru***



## Qarlı qış günündə bir kənd evində... (Reportaj)

Şahbuz şəhərindən Nursu kəndinə gedərkən bir vaxtlar Məmməd Arazın bir qədər küskünlüklə qələmə aldığı

*Kəndim, balacasan, çox*
*balacasan,*
*Adın yox dünyanın xəritəsində.*
*Atılıb qalmısan gözlərdən uzaq*
*Çaylı, baldırğanlı dağ dərəsində,*

– misraları yadıma düşdü. O anda Nursunun bugünkü siması xatırladım. 2014-cü ildə aparılan kompleks quruculuq tədbirləri hesabına müasir Azərbaycan kəndinə çevrilmiş abad yaşayış məntəqəsi gözlərim önündə canlandı. Məmməd Araz kimi görkəmli şairin doğulub boya-başa çatdığı, “hələ adı dünyanın xəritəsində olmayan” bir vaxtlar bu kənddə bir neçə dəfə olmuşdum. Quruculuq tədbirləri həyata keçiriləndən sonra da. Artıq Nursunun da adının dünyanın quruculuq xəritəsinə düşdüyünü bu gün yolu həmin ünvana düşənlərin hamısı təsdiq edər. Gərəkdir ki, o kəndə gedəsən, o kəndin bu gününü özün görəsən və Məmməd Araz arzularının çiçəklədiyinin şahidi olasan. Qəlbimdən keçənləri yol yoldaşım, sürücü Zahid Rüstəmova bildirirəm. Öz el-obasını əsl vətənpərvərliklə sevən bu sadə peşə sahibi, sən demə, Məmməd Araz poeziyasının vurğunudur, onun şeirlərinin çoxunu əzbər bilir. Həmin şeirin bir bəndini isə o deyir:

*Kəklik fərəsinin sayına görə,*
*Bulud nərəsinin sayına görə,*
*Aylı gecələrin sayına görə,*
*Tozlu küçələrin sayına görə,*
*Bəlkə də, dünyada birinci*
*kəndsən.*

Sonra söhbətinə davam edir:

– Düşünürəm ki, muxtar respublikamızda indi elə bir kənd olsun. Elə bu kiçik Şahbuz rayonunun ən ucqar dağ kəndi, ən kiçik yaşayış məntəqəsi özgə bir büsatdadır. Nursu da həmin kəndlər sırasında.

Mahmudoba kəndini keçdikdən bir qədər sonra qar yağmağa başladı. Maşından düşüb təmiz qar havası udmaq istədik. Dayandığımız yerdən ətraflara göz gəzdirdim. Yurdumuzun ayrı-ayrı ünvanlarında və dəfələrlə gördüyüm mənzərələr yenidən qəlbimi dağa döndərdi. Bir tərəfdə möhtəşəmlik rəmzi olan dağlar, bir tərəfdə dərələrə sığınmış evlər. Qar isə yağmağındadır. Yenə Zahid dillənir: Bolluq yağır, bərəkət yağır, öz yerinə, öz yurduna yağır.

“Yolçu yolda gərək”, – deyib yola düzəlirik. Şahbuz şəhərindən çıxanda razılaşmışıq ki, ilk olaraq Məmməd Arazın ev-muzeyinə gedək. Kəndə daxil oluruq. Uzaqdan Nursunun “keşiyində dayanmış” başı ağ çalmalı Toğlu qaya, Motal qaya dağları görünür. Bu dünya binə olandan beləcə dayanan bu dağların qoynuna sığınmış Nursu ağ dona bürünüb. Yeni quruculuq ünvanlarının hamısı kəndin mərkəzində cəmləşib. Tam orta məktəb binası, kənd və xidmət mərkəzlərinin yanından keçib üzü yoxuşa qalxırıq.

Bu da görkəmli şairimizə böyük diqqət və ehtiramın ifadəsi olan muzey. Gəlişimizdən muzeyin direktoru Fizzə Bağırovanın xəbəri var. Qapıya çıxıb bizi qarşılayır. İçəri daxil oluruq. Muzey direktoru Məmməd Araz haqqında ürəkdən danışır. Onun şeirlərini söyləməkdən yorulmur. Məmməd Araz sənətinə belə vurğunluğun sirrini bu torpaqda görürəm. Sonra görüşəcəyim, söhbətləşəcəyim insanlar bu qənaətimi bir daha təsdiqləyəcəklər.

Muzeydən çıxırıq. Sürücüdən kənd evlərinin birinin qapısında avtomobili saxlamağı xahiş edirəm. Mənimlə birlikdə o da avtomobildən düşür. Bu evi çoxdan tanıyırmış kimi qapını ərklə döyüb dayanıram. Həyətdən uşaq səsləri gəlir. Qapını açıb baxıram. Qartopu oynayırlar. Qapının səsinə dönür, sevimli oyunlarına bir qədər ara verərək bizə tərəf baxırlar. Onlardan biri ucadan evə tərəf səslənir:

– Ay baba, qonağımız gəlib.

Bir az sonra evin qapısı açılır. Orta yaşlarında bir nəfər gəlib bizə yaxınlaşır, neçə illərin tanışı kimi hal-əhval tutur, evə dəvət edir.

Ev sahibinin bizi tanımadan səmimiyyətlə içəri dəvət etməsini bu kənddə qonağa hörmət kimi qəbul edirəm. Yəni bu, xalqımıza məxsus ən yüksək keyfiyyətlərdəndir ki, Nursuda bu gün də ona əməl olunur.

Bu da sadə bir kənd evi. Öyrənirəm ki, kənd tam orta məktəbinin müəllimi Rizvan Bağırovun evidir. Bir qədər sonra biləcəyəm ki, Bağırovlar bu kənddə böyük bir nəsildir və çoxlu ziyalısı var. Onların sırasında alim də var, yazıçı da, iqtisadçı da. Müəllimlər isə çoxluq təşkil edir. Babasını çağıran uşaq isə Bakıda yaşayır. İkinci sinif şagirdidir. Qış tətili günlərini doğma kənddə keçirməyə gəlib. Rizvan müəllim söhbətə qarışır: Böyük nəvəmdir, şahmatçıdır. Bir qədər təəccüblənirəm. Bu diribaş uşaq inanmadığımı hiss edir, o biri otağa keçir, diplomunu gətirir. Bu an Rizvan müəllimin təbəssümlü simasına gözüm sataşır. Hiss etmək çətin deyil ki, bu təbəssüm baba sevgisindən doğulub. Elə şirin söhbət də buradan başlayır. Rizvan müəllim ailəsi haqqında məlumat verərək bildirir ki, 4 övlad atasıdır. Onların 4-ü də ali təhsil alıb. Bir neçə gündür, Bakıda yaşayan övladları ata evinə gəliblər. Gəliblər ki, tətili burada keçirsinlər.

Evdə qonaq olan Rizvan müəllimin bibisi Tovuz xanım söhbətə qoşulur. Deyir ki, belə xoş günləri indi-indi görürəm. Kiçik bir kolxozda işləyib, ailəmizi dolandırmışıq. Ancaq bu çətinliklərə baxmayaraq, uşaqlarımızı oxutmuşuq. Şükür ki, belə xoş dövrana gəlib çıxmışıq. Bu günləri görəndə, vallah, bir az da yaşamaq istəyirəm. Sağ olsun dövlətimizi, belə ucqar kəndə qaz çəkiblər, işıq çəkiblər, evin içində oturub dünyanın o başı ilə danışmağa şərait yaradıblar. Belə günlərin qədrini bilməmək naşükürlükdür. Bunlar asan başa gəlməyib. İllər qabaq Şahbuzdan bu kəndə gəlməyə saatlarla vaxt itirirdim. Yollar pis vəziyyətdə, maşın da az idi. İndi şüşə kimi yolumuz var. Kəndə çıxsan, iki-üç qapıdan birində maşın görəcəksən. İlbəil yeni evlərin sayı artır. Bunların hamısı kənd adamlarının yaxşı yaşaması üçün edilir. Ancaq onu da deyim ki, kənd adamları dünəni unutmurlar. Kənd sakinləri heyvan da saxlayırlar, arı da. Əkin-biçin üçün də imkan var. Kənd adamının ki süfrəsinə dükanbazardan ət, yağ, pendir gəldi, onda bu, necə kəndçilik oldu? Camaatımız təsərrüfatda çalışmağı özünə ar bilmir. İstər oxumuş olsun, istərsə də başqaları.

Evin gəlini Validə müəllimə Nursu kənd tam orta məktəbində həyat yoldaşı Rizvan müəllimlə çiyin-çiyinə çalışır. Dilimizi və ədəbiyyatımızı nursulu uşaqlara öyrədir. Bu günlər Validə müəllimənin də sevincinin üstünə sevinc gəlib. Övladlarının 4-ü də başına yığışıb. Deyir ki, Bakıda yaşayan uşaqlarım kəndə bir neçə günlüyə qonaq gəlmişdilər. O vaxt tikinti işləri təzə başlamışdı. Məktəb, kənd və xidmət mərkəzləri, unudulmaz şairimiz Məmməd Arazın ev-muzeyi üçün binalar inşa olunurdu. Həmin binalar istifadəyə verildikdən sonra onların şəkillərini internet vasitəsilə uşaqlara göndərdik. Budur, indi özləri gəliblər. Gələn kimi də birinci olaraq məktəbə baş çəkdilər. Gördüklərinə inanmırdılar ki, ucqar dağ kəndində 234 şagird yerlik məktəb tikilsin. Burada elektron lövhəli siniflər, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları istifadəyə verilsin.

Burada Rizvan müəllim söhbətə qarışır. Deyir ki, yeni bina istifadəyə verilən gün məktəbin elektron lövhəli sinfində muxtar respublikanın 192 ümumtəhsil məktəbi ilə Cəlil Məmmədquluzadənin ev-muzeyi arasında videobağlantı qurulacağını və virtual dərs keçiləcəyini uşaqlara bildirəndə buna inanmaqları gəlmədi. Düzünü deyim ki, həmin gün heç kənd adamları da buna inana bilmirdilər.

Evin böyük oğlu Emin kənd və xidmət mərkəzlərində olduğunu da bildirir. Doğulub boya-başa çatdığı qədim yaşayış məntəqəsinin müasir Azərbaycan kəndinə çevrilməsindən qürur hissi ilə danışır. Gülnarə müəllimə də məmnunluğunu ifadə edir. Deyir ki, bir, ya uzağı iki il Naxçıvandan ayrılan adam buraya qayıdarkən gözlərinə inana bilmir. Doğma yurdumuzda çox böyük inkişaf var. Bunu sözlə ifadə etmək çətindir.

Soyuq və şaxtalı bir qış günündə muxtar respublikanın ən ucqar dağ kəndlərindən birində, sadə bir müəllim evində etdiyimiz söhbətlər qurtarmaq bilmirdi. Bu da təbii idi. Bu işlərin Naxçıvan şəhərində, rayon mərkəzlərində görülməsi bir o qədər də təəccüblü olmaz və hər gün bunun şahidiyik. Ancaq kiçik və ucqar yaşayış məntəqəsinin qısa bir müddətdə müasir Azərbaycan kəndinə çevrilməsi muxtar respublikada insan amilinə qayğının davamlı olduğunun ifadəsidir. Və söhbətlərimizdə də bu məqam dəfələrlə dilə gətirildi.

...Bayırda qar yağmağındadır. Bizə bu gün getməməyi, qalmağı məsləhət görürlər. Bu ailənin qonaqpərvərliyi öz yerində, ailə üzvlərinin yoldan ehtiyat etdiklərini hiss edirik. Sürücü gülümsünüb deyir ki, o vədələr keçmişdə qaldı. Bu gün ən ucqar dağ kəndlərinin belə, yolları elə vəziyyətdədir ki, sərnişinlər vaxtında və təhlükəsiz olaraq mənzil başına çatırlar. Sağollaşıb ayrılırıq. Yol boyu isə muxtar respublikanın ötən əsrin 90-cı illərinin əvvəllərindəki çətin günlərini xatırlayır və bugünkü inkişafımızı, insanların firavan yaşayışı üçün görülən işləri minnətdarlıq duyğuları ilə gözlərim önünə gətirirəm.

✍ **Muxtar MƏMMƏDOV**

*Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi muxtar respublikada milli mədəniyyətin, milli musiqi və teatr sənətinin inkişafında, ali təhsilli incəsənət adamlarının, sənətşünasların hazırlanmasında özünəməxsus rol oynayır. Yola saldığımız 2015-ci il fakültənin tarixində əhəmiyyətli sənət uğurları ilə yadda qalacaq. Belə uğurlardan biri də fakültənin Teatrşünaslıq və mədəniyyət kafedrasının müəllimi, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının gənc və istedadlı aktyoru Elnur Rzayevin adı ilə bağlıdır.*

*Yeni nəsil, yeni nailiyyətlər*

## Gənc aktyorun sənət uğurları



Universitetin məzunu, 2012-ci ildən isə burada pedaqoji fəaliyyətə başlayan Elnur Rzayev hələ tələbəlik illərində Tələbə Teatr Studiyasında özünü istedadlı aktyor kimi tanıdıb. O, İncəsənət fakültəsinin Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovanın rəhbərliyi ilə Tələbə Teatr Studiyasının hazırladığı Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasında Hacı Həsən ağa və Məşədi Oruc, Nazim Hikmətin "Qəribə adam" pyesində vəkil Əhməd, Adil Babayevin "Sarı gəlin" əsərində Ədalət müəllim obrazlarını ustalıqla ifa edib. Antik yunan dramaturgiyasının nadir nümunələrindən sayılan Esxilin "Zəncirlənmiş Prometey" əsərindəki Prometey obrazı isə unikal, peşəkar ifa etibarı ilə Elnurun yaradıcılığında sənət zirvəsi sayıla bilər. 2010-2011-ci illərdə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının nəzdində fəaliyyət göstərən "Təməl" Teatr Studiyasında sənət dərsləri alan Elnur Rzayev 2011-ci ildən dram teatrda aktyor kimi fəaliyyət göstərir. O, teatrın zəngin sənət təcrübəsinə malik peşəkar aktyorları ilə eyni səhnəni paylaşaraq M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərində Şahbaz bəy, İslam Səfərlinin "Göz həkimi" pyesində Rauf, akademik Şəfaət Mehdiyevin "Mirzə Fətəli Axundov" və Nəriman Nərimanovun "Nadanlıq" əsərlərində hər iki böyük mütəfəkkirin gənclik obrazlarını, habelə Nazim Hikmətin "Kəllə", Henrix İbsenin "Kuklalar", A.P.Çexovun "Russayağı evlənmə", Ç.Aytmatovun "Gün var əsrə bərabər" kimi dünya dramaturgiyasına aid əsərlərdə də baş rolları ifacısı kimi aktyorluq bacarığını göstərə bilib.

Elnur Rzayev öz istedadını rejissor və ssenarist kimi də uğurla sınamaqdadır. 2015-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, "ASSİTEJ – Azərbaycan"ın birgə təşkilatçılığı ilə keçirilən Gənclərin III Ümumrespublika Teatr Festivalına təqdim edilən, Bakını və 4 regionu təmsil edən 12 tamaşa sırasında Elnur Rzayevin ssenarisi və onun rejissorluğu ilə hazırlanan "Boz" tamaşası festivalın ən uğurlu tamaşalarından biri kimi yadda qalıb. Təsadüfi deyil ki, tamaşadakı baş rolun ifaçısı, Naxçıvan Dövlət Universitetinin tələbəsi Nurbəniz Niftəliyeva festivalda "Ən yaxşı aktrisa" nominasiyasının qalibi olub.

Elnurun ən böyük uğurlarından biri "Anamın kitabı" ədəbi müsabiqəsinin "Pyes müsabiqəsi – 2015"də müəllif kimi əhəmiyyətli qələbə qazanmasıdır. Müsabiqənin ilk turunda 16 əsərdən Elnur Rzayevin "Qar gözləyərkən" pyesi də daxil olmaqla, 8 ən yaxşısı seçilərək müsabiqəyə buraxılıb. Növbəti turda – onlayn səsvermə zamanı Elnurun əsəri 10 maksimum baldan 8 bal toplayıb. Münsiflər heyəti tərəfindən isə əsər 25 balla qiymətləndirilib. Münsiflər heyətinin qərarı ilə müsabiqədə I yer verilməyib, II yerə isə Elnur Rzayevin pyesi layiq görülüb. Gənc Tamaşaçılar Teatrında keçirilən qaliblərin mükafatlandırma mərasimində çıxış edənlər – layihənin ideya müəllifi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiq, AMEA-nın vitse-prezidenti, müsabiqənin münsiflər heyətinin sədri, akademik İsa Həbibbəyli çıxışında teatrların repertuarlarının müasir və yeni dram əsərləri ilə zənginləşdirilməsi, gənc dramaturqların yetişməsi baxımından müsabiqənin mühüm əhəmiyyətini vurğulamaqla yanaşı, "Qar gözləyərkən" adlı birpərdəli absurd pyesin orijinallığı, mövzu və ideya əhəmiyyəti barədə də yüksək rəy bildiriblər. Akademik İsa Həbibbəylinin dediklərindən: "Naxçıvan Dövlət Universitetinin müəllimi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru Elnur Rzayev Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərində Şahbaz bəy obrazının öhdəsindən çox məharətlə gəlib. O, Naxçıvan Dövlət Universitetinin səhnəsində Esxilin "Zəncirlənmiş Prometey" əsərindəki Prometey rolunu bütün gərginliyi ilə əks etdirib. Və zamanla başqa obrazları da məharətlə yaradıb. O, əsl mənada teatr fədaisi, sənət fədaisidir. Onun müsabiqəyə təqdim etdiyi əsər tamamilə yeni dramaturji metodla yazılmış qeyri-adi bir əsərdir..."

Pyes mənən zəngin, ruhən saf, kövrək və həssas olan bir insanın mənəvi paklıq, halallıq axtarışından bəhs edir, insanları mənəvi saflığa, humanizmə, ali insani hisslərlə yaşamağa, həyata daxili aləmin, mənəvi dünyanın gözü ilə baxmağa, şərəfli və mənalı ömür sürməyə səsləyir. Müəllifin özünəxas müşahidəçilik qabiliyyəti, saflıq, halallıq rəmzi olan arılarla insan həyatı arasında paralel müqayisələri də maraq doğurur.

Gənc yaşlarında artıq yetərincə tamaşaçı rəğbəti qazanan istedadlı aktyor Elnur Rzayev həm də gözəl fotoqrafdır. Onun fotoetüdləri bir neçə dəfə uğurla sərgilənib. Elnur muxtar respublikada teatrın çiçəklənməsinə, gənc istedadlara göstərilən hərtərəfli dövlət qayğısından ürəkdolusu danışaraq qazandığı uğurları sənət müəllimlərinə borclu olduğunu söyləyir. Tamaşaçısını hələ neçə-neçə obrazla görüşdürmək, neçə-neçə ədəbi qəhrəmana yeni nəfəs, yeni ruh, yeni ömür bəxş etmək, müxtəlif səhnə əsərlərini öz prizmasında, orijinal üslubda yenidən tamaşaçısına qaytarmaq arzusunda olan Elnur sənətin nahamar, çətin, məsuliyyətli, həm də şərəfli yolunda inam və iradə ilə, əzmlə irəliləyir. Bu yolda ona uğurlar arzulayırıq.

**Mehriban SULTAN**

## İşaxtaran vətəndaşların nəzərinə !

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti kəndlərdəki xidmət mərkəzlərində mövcud olan vakansiyaların kadrlarla təmin edilməsi üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzində qadın bərbəri, bərbər və dərzi peşələri üzrə kurslar təşkil edir. Tədrisin müddəti qadın bərbəri və bərbər kursunda 2, dərzi kursunda isə 3 aydır. Tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer | | |
|---|---|---|---|---|
| | | Qadın bərbəri | Bərbər | Dərzi |
| **Naxçıvan şəhəri üzrə** | | | | |
| 1. | Qaraçuq | 1 | - | - |
| | **Cəmi:** | **1** | - | - |
| **Şərur rayonu üzrə** | | | | |
| 1. | Muğancıq-Mehrab | 1 | - | - |
| 2. | Qarxun | 1 | - | 1 |
| 3. | Yuxarı Aralıq | - | 1 | 1 |
| 4. | Püsyan | 1 | 2 | - |
| 5. | Xanlıqlar | 1 | 2 | 1 |
| 6. | Aşağı Daşarx | 1 | - | - |
| 7. | Danyeri | 1 | - | 1 |
| 8. | Çomaxtur | 1 | - | - |
| 9. | Diyadin | - | 1 | - |
| 10. | Axura | 1 | - | - |
| 11. | Aşağı Yaycı | 1 | - | 1 |
| 12. | Şahbulaq | 1 | 1 | - |
| 13. | Mahmudkənd | 1 | - | - |
| 14. | Cəlilkənd | 1 | 1 | 1 |
| 15. | Qorçulu | 1 | - | - |
| 16. | Yengicə | 2 | - | - |
| 17. | Yuxarı Daşarx | 1 | 1 | - |
| 18. | Sərxanlı | 1 | - | - |
| | **Cəmi:** | **17** | **9** | **6** |
| **Babək rayonu üzrə** | | | | |
| 1. | Cəhri | - | - | 1 |
| 2. | Güznüt | - | 2 | - |
| 3. | Qahab | 2 | 1 | - |
| 4. | Kərimbəyli | 1 | - | - |
| 5. | Şıxmahmud | 1 | - | - |
| | **Cəmi:** | **4** | **3** | **1** |
| **Ordubad rayonu üzrə** | | | | |
| 1. | Nəsirvaz | 1 | 1 | - |
| 2. | Nürgüt | 1 | 1 | - |
| 3. | Xurs | - | 1 | - |
| 4. | Bist | 1 | 1 | - |
| 5. | Behrud | 1 | - | - |
| 6. | Parağa | - | 1 | - |
| 7. | Çənnəb | 1 | - | - |
| 8. | Yuxarı Əylis | 1 | - | - |
| 9. | Ələhi | - | 1 | - |
| | **Cəmi:** | **6** | **6** | |
| **Culfa rayonu üzrə** | | | | |
| 1. | Ləkətağ | 1 | - | - |
| 2. | Teyvaz | 1 | - | - |
| 3. | Boyəhməd | - | 1 | - |
| 4. | Gal | - | 1 | - |
| | **Cəmi:** | **2** | **2** | |
| **Şahbuz rayonu üzrə** | | | | |
| 1. | Sələsüz | 1 | 1 | - |
| 2. | Badamlı | - | 1 | 1 |
| 3. | Keçili | 1 | - | - |
| 4. | Nursu | 1 | 1 | - |
| 5. | Aşağı Qışlaq | - | 1 | - |
| 6. | Kolanı | - | 1 | 1 |
| 7. | Ayrınc | - | 1 | - |
| 8. | Kükü | 1 | - | - |
| 9. | Güney Qışlaq | 1 | 1 | - |
| 10. | Qızıl Qışlaq | 1 | 1 | - |
| 11. | Gömür | 1 | - | - |
| 12. | Biçənək | - | 1 | 1 |
| | **Cəmi:** | **7** | **9** | **3** |
| **Kəngərli rayonu üzrə** | | | | |
| 1. | Qarabağlar | 2 | - | - |
| 2. | Çalxanqala | 1 | - | 1 |
| 3. | Təzəkənd | - | 1 | - |
| 4. | Xok | 2 | 2 | - |
| 5. | Qabıllı | 1 | - | - |
| 6. | Şahtaxtı | 2 | - | 1 |
| 7. | Yeni Kərki | 1 | - | - |
| | **Cəmi:** | **9** | **3** | **2** |

Əqli və fiziki potensialları qadın bərbəri, bərbər və dərzi peşələri üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər. Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan vakansiyalar üzrə işlə təmin olunacaqlar.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

## Qış aylarında necə idman etməliyik?

### *İdmançılar bu aylarda qidalanmaya xüsusi fikir verməlidir*

***İdman edərkən bəzən kiçik səhvlərimiz insan orqanizmi üçün sonradan müəyyən fəsadlar törədir ki, bu da zaman keçdikcə bədəndə müəyyən anormallıq yaradır. İdman mütəxəssislərinin apardığı araşdırmalar zamanı məlum olub ki, ilin hər fəslində idman fərqli halda edilməlidir. Məsələn, yay və yaz aylarında daha çox açıq havada məşq etmək məsləhət görülür.***

Təbii ki, qış fəslində də açıq havada idmanla məşğul olmaq orqanizmin daha sağlam inkişaf etməsinə zəmin yaradır. Lakin qış aylarında açıq havada məşq edərkən bəzi məqamları bilmək vacibdir. Bunlardan biri məşqə başlamazdan əvvəl isinmə hərəkətləridir. Soyuq qış aylarında isinmə, gərilmə hərəkətləri əzələləri dartınmaqdan, əzilmələrdən qoruyur. Peşəkar idmançılar isinmə hərəkətlərini 45-55, qeyri-peşəkar idmançılar isə 20-25 dəqiqə etməlidir. Qış aylarında idman edərkən daha çox geyimə fikir vermək lazımdır: tərkibi yun və ya pambıq geyimlər bu fəsil üçün məqsədəuyğun deyil. Çünki bu geyimlər tərlə birgə isinir və bədəni nəmli saxlayır.

Qış aylarında açıq havada idmanla məşğul olduqda insan orqanizmindən tər ilə birlikdə kalium və natrium duzları xaric olunur. Bu baxımdan prosedurlardan əlavə, tərkibi protein olan pəhrizlərdən istifadə etmək məsləhətdir.

Bəs itirilmiş enerjini necə bərpa etmək olar və ya qidalanma zamanı nəyə fikir vermək lazımdır?

İsti havadan fərqli olaraq, soyuq havada səhər yeməyindən 2 saat, nahardan isə 4 saat keçməmiş idman etmək məsləhət görülmür. Bu zaman sağlamlıq üçün bəzi sadə prosedurları tətbiq etmək lazımdır. Bunların ən əsası isə məşqlər zamanı itirilən enerjini bərpa etməkdir. Enerjini artırmaq üçün istəyə uyğun natrium və kalium tərkibli yeməklərlə qidalanmaq və çoxlu maye qəbul etmək olar. Bəzi idman mütəxəssisləri qeyd edirlər ki, qış aylarında məşq zamanı çoxlu maye qəbul etmək sağlamlığa daha təsirlidir. Gün ərzində bir dəfə məşq edənlər (hobbi kimi) 1,5 litr maye qəbul etməlidirlər.

Ümumiyyətlə, soyuq havada məşq etdikdən sonra protein kokteyllərindən istifadə faydalıdır. Həmin kokteyllər əzələ kütləsini artırmağa kömək etməklə yanaşı, orqanizmə heç bir kimyəvi təsir göstərmir. Bir şəxs peşəkar və ya gündəlik idmanla məşğul olmaq istəyir və məşq müddəti 1-3 saatdırsa, o zaman protein kokteyllərindən istifadə vacib şərtdir.

İdmançıların ən böyük problemi onların çəki məsələlərində bir qədər səhlənkar olmalarıdır. Müəyyən qidalar onların kökəlmələrinə səbəb olur. Odur ki, qış aylarında pəhrizə riayət etmək üçün proteinlə zəngin qidalar və 2 ovuc kişmiş yemək kafidir. Məşqdən dərhal sonra içilən proteinli kokteyl bədənin gücünü bərpa edir və zülalların əzələlərdəki sintez prosesini sürətləndirir.

Bəzən güclü məşqdən sonra havanın temperaturuna uyğun olaraq yeməyi də planlaşdırmaq olar. Təbii ki, bu ara müddət 2-4 saat olmalıdır.

İstəyə uyğun olaraq yumurta, təzə meyvə şirəsi, mövsümi meyvələr, tərəvəzlər, balıq əti, kartof yemək itirilmiş enerjini yenidən bərpa edir və onu əzələ kütləsinə çevirir.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

### *2016-cı il üçün kotirovka elan edir*

*Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 28 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 29 yanvar 2016-cı il tarixdə saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Səlim Camalov***
***Telefon: 544-13-05***
***Ünvan: Naxçıvan şəhəri, İslam Səfərli küçəsi, 9***

### *İtmişdir*

Əsgərov Ağalar Abbasqulu oğlunun adına olan evin 2745 inventar nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babayev Adəm Mazan oğlunun adına olan avtomobilin nömrəsi 23 noyabr 2015-ci il tarixdən itdiyindən etibarsız sayılır.

* * *

Novruzova İlkanə Vəli qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 70